Dekabr 2016

# PwC Azerbaijan Times

## 35 saylı Buraxılış

*Buraxılışın əsas xəbərləri:*

- **Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Fərman**
- **Rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının qaydaları təsdiq edilmişdir**




Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Fərman*

Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir. Bunu nəzərə alaraq, Prezident tərəfindən aşağıdakı strateji yol xəritələri təsdiqlənmişdir:

- "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi";

- "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi".

Strateji yol xəritələrinin həyata keçirilməsinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirəcək.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası bu Fərman qüvvəyə mindikdən sonra hazırlanacaq dövlət proqramlarının, inkişaf konsepsiyalarının, strategiyaların, tədbirlər planlarının layihələrinin bu Fərmanla təsdiq edilən strateji yol xəritələrinə uyğunluğunu təmin edəcək tədbirlər görəcək.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər iqtisadi sahədə fəaliyyət istiqamətlərinə dair strateji planların, dövlət proqramlarının, inkişaf konsepsiyalarının, strategiyaların, tədbirlər planlarının layihələrinin hazırlanması zamanı bu Fərmanla təsdiq edilən strateji yol xəritələrinin müddəalarını rəhbər tutacaqlar.

Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

### *Rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının qaydaları təsdiq edilmişdir*

Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilmiş bu qaydalara uyğun olaraq, fiziki şəxslərin bank hesabı açmadan xarici valyuta vəsaitlərinin gündəlik əməliyyatlarına 1,000 (min), aylıq əməliyyatlara isə 10,000 (on min) ABŞ dolları ekvivalentində limit müəyyən edilmişdir. Həmin həcmdə limit xarici ölkələrə yaxın qohumlara ötürülən məbləğlər üçün də müəyyənləşdirilmişdir.

Yerli bankların Azərbaycandan kənarda xarici valyutada məhdudiyyət olmadan həyata keçirə biləcəyi əməliyyatların siyahısı Qaydalarda göstərilmişdir. Onlardan bəziləri aşağıdakılardır:

- rezidentlər tərəfindən işə qəbul edilmiş qeyri-rezidentlərin əmək haqlarının ödənilməsi;

- Azərbaycandan kənarda təsis edilmiş hüquqi şəxsin nizamnamə kapitalına qoyulmuş vəsait;

- qiymətli kağızların ödənişləri;

- rezidentlər tərəfindən qeyri-rezidentlərə dividentlərin ödənilməsi;

- rezident və ya qeyri-rezidentlər tərəfindən özləri və ya digərləri üçün təhsil və ya müalicə haqqının ödənilməsi.

Qaydalar 8 dekabr 2016-cı il tarixində qüvvəyə minəcəkdir.